


Ölkəmizi tanıyaq




# Gənclərin dünyagörüşünün formalaşmasında mühüm rol oynayan layihə







## Qəbələ

Respublikamızın şəhər və rayonlarının IX-XI sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyanın noyabrın 11-14-nü əhatə edən mərhələsi uğurla başa çatıb.

Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə keçirilən tur-aksiyada iştirak edən Biləsuvar, Kürdəmir, Hacıqabul, Saatlı, Sabirabad, Zərdab, Ucar, Xocavənd, Laçın, Xocalı, Kəlbəcər məktəbliləri noyabrın 14-də Qəbələ şəhərindən yaşadıqları rayonlara yola düşüblər.

Şagirdlər rayon icra hakimiyyətləri və təhsil şöbələrinin məsul işçiləri tərəfindən yola salınıblar.

Qeyd edək ki, 11 şəhər və rayondan olan 440 məktəbli tur-aksiyanın proqramına uyğun olaraq, noyabrın 11-dən 14-dək Qəbələ, Şəki və Zaqatala rayonlarının sosial-iqtisadi inkişafı istiqamətində görülən işlər, son illərdə inşa edilən sosial obyektlər, əyləncə və istirahət mərkəzləri, tarixi-mədəni abidələr, turizm obyektləri, muzeylərlə tanış olublar. Maarifləndirici xarakter daşıyan tur-aksiya zamanı məktəblilərə bölgənin tarixi, adət-ənənələri, coğrafiyası, turizm imkanları haqqında məlumat verilib.

Şagirdlərin iştirakı ilə intellektual oyunlar, müxtəlif viktorinalar keçirilib, musiqili-əyləncəli gecə təşkil olunub. Ekskursiya zamanı gözəl təbiət qoynunda istirahət edən, mənzərəli guşələrdə xatirə şəkilləri çəkdirən məktəblilər Qəbələ, Şəki və Zaqataladan xoş təəssüratlarla ayrılıblar.

## Göygöl

Respublikamızın şəhər və rayonlarının IX-XI sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Gəncə-Göygöl-Şəmkir marşrutu üzrə ekskursiyaya çıxan Sumqayıt şəhərindən, paytaxtın Xəzər, Pirallahı, Qaradağ, eləcə də Masallı, Lənkəran, Astara, Lerik və Yardımlı rayonlarından olan məktəbliləri noyabrın 13-də Göygöl və Şəmkir rayonları ilə tanış olublar.

Əvvəlcə tur-aksiya iştirakçıları Göygöl rayonuna gəliblər. Bildirilib ki, Göygöl şəhərinin əsası 1819-cu ildə Almaniyanın Vürtemburq Krallığından gələn koloniyaçılar tərəfindən qoyulub. Şəhərin adı da elə alman koloniyaçıları tərəfindən Helenendorf adlandırılıb. İkinci Dünya müharibəsi başlayana qədər burada dinc və əmin-amanlıq şəraitində yaşayan almanlar 1941-ci ildə Stalinin əmri ilə Sibirə və Qazaxıstana sürgün ediliblər. Ötən illərdə bir neçə dəfə adını dəyişən rayon 2008-ci ildən Milli Məclisin qərarı ilə Göygöl adlandırılıb. Vaxtilə almanlar tərəfindən salınan küçələr, tikilən eyvanlı, çatmatağlı evlər və alman Lüteran kilsəsi bu gün də olduğu kimi mühafizə olunur. Kilsədə rayonun keçmişini, eləcə də almanların tarixini və məişətini əks etdirən çoxlu sayda qiymətli eksponatlar qorunub saxlanılır.

Tur-aksiya iştirakçıları şəhərlə tanışlığa Heydər Əliyev Mərkəzindən başlayıblar. Əvvəlcə məktəblilər burada ümummilli liderin həyatını, siyasi fəaliyyətinin ayrı-ayrı dövrlərini əks etdirən foto və sənədlərə baxıb, mərkəzin fəaliyyəti ilə tanış olublar. Bildirilib ki, buradakı muzeydə gənclər üçün xalçaçılıq və bədii biçmə-tikmə evləri, həmçinin kinozal fəaliyyət göstərir.

Heydər Əliyev Mərkəzi ilə tanışlıqdan sonra məktəblilər mərkəzin ətrafında şam ağacları əkib və onlara ilkin qulluq göstəriblər.

Göygöldə yaşayan və 2011-ci ildə vəfat edən rayonun sonuncu alman sakini Viktor Klaynın evi ilə tanışlıq da məktəblilər üçün yaddaqalan olub. Bildirilib ki, hazırda restavrasiya mərhələsində olan ev gələcəkdə Azərbaycan-Almaniya mədəni əlaqələrinin qorunub saxlanılması və inkişaf etdirilməsi istiqamətində multikulturalizm mərkəzi kimi fəaliyyət göstərəcək.

Daha sonra Göygöl Rayon Tarix-Diyarşünaslıq Muzeyi və Azərbaycan Dövlətinin Rəmzləri Muzeyi ilə tanışlıq da tur-aksiya iştirakçıları üçün yaddaqalan olub.

İştirakçıların rayonla tanışlığı çərçivəsində səfər etdikləri sonuncu məkan füsunkar təbiət möcüzəsi - Göygöl olub.

Tur-aksiya iştirakçılarına məlumat verilib ki, 1139-cu ildə Kiçik Qafqaz dağlarında 9 bal gücündə zəlzələ baş verib. Güclü zəlzələnin təsirindən Kəpəz dağının zirvəsi uçaraq Ağsu çayının qarşısını kəsib və əsrarəngiz gözəlliyə malik, nadir təbiət incisi Göygöl yaranıb. Məktəblilərə bildirilib ki, hazırda Göygölə yaxın ərazilərdə bir-birindən gözəl 17 göl var. Göllərin hər biri müxtəlif əlamətlərinə görə adlandırılıb. Lakin onlardan Göygöl və Maral göl daha məşhurdur. Hər il 10 minlərlə turistin səfər etdikləri bu ərazilərdə həm də Azərbaycan təbiətinin ən nadir fauna və flora növləri qorunur.

Rayonla tanışlıqlarını başa vuran tur-aksiya iştirakçıları sonra Şəmkirə səfər ediblər.

Məktəblilərin rayonla tanışlığı orta əsr Şəmkir qalasından başlayıb. Qalanın qalıqları ilə tanış olan şagirdlərə məlumat verilib ki, böyük İpək yolu üzərində yerləşən bu qədim şəhər AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən aşkarlanıb. Əvvəllər kiçik ərazidə aparılan arxeoloji qazıntı işləri sonradan 28 hektar ərazidə davam etdirilib. Az müddətdə ərazidən böyük şəhər mədəniyyətinin qalıqları ilə bərabər, xeyli sayda maddi-mədəniyyət nümunələri də üzə çıxarılıb. Hazırda qədim şəhər ərazisində arxeoloji qazıntı işləri beynəlxalq arxeoloqlarla birlikdə aparılır.

Sonra Şəmkir şəhərinin mərkəzinə gələn məktəblilərə Heydər Əliyev Mərkəzi haqqında məlumat verilərək bildirilib ki, bina orijinal memarlıq üslubunda inşa edilib. Belə ki, mərkəzin daxilində yan divarlarda ümummilli liderin həyat və siyasi fəaliyyətini əks etdirən fotolara baxan hər kəs irəlilədikcə istər-istəməz yüksəkliyə qalxmış olur. Bu cür memarlıq həlli isə həm rəmzi məna daşıyır, həm də ümummilli lider Heydər Əliyevin yüksələn siyasi fəaliyyətini əks etdirir.

Şagirdlər Heydər Əliyev Mərkəzində ulu öndərin zəngin irsini əks etdirən fotoşəkillərə, ümummilli liderə həsr olunan kitablara baxıblar.

Bildirilib ki, mərkəzdə ümummilli lider Heydər Əliyevin müxtəlif vəzifələrdə olduğu dövrlərdə işlədiyi kabinetlərin və iş otaqlarının bənzərləri yaradılıb. Bayraq meydanında tarixən Azərbaycanda mövcud olan dövlətlərin bayraqlarının və nişanlarının əks olunduğu guşələr də tur-aksiya iştirakçılarında böyük maraq yaradıb.

Məktəblilər Şəmkirdə vaxtilə alman koloniyaçıları tərəfindən inşa olunan Lüteran kilsəsi ilə də tanış olublar. Onlara Şəmkirin əsasını qoyan alman koloniyaçıları haqqında geniş məlumat verilib.

Məktəblilərin Göygöl və Şəmkir rayonları ilə tanışlığı zəngin səfər təəssüratları ilə başa çatıb.

## Lənkəran

Ümumtəhsil məktəblərinin şagirdləri və onların müəllimləri dörd gün ərzində Lənkəran-Masallı-Astara istiqaməti üzrə səyahət zamanı şəhər və rayonların tarixini, mədəniyyətini, əhalinin həyat tərzini və məişətini əks etdirən abidələrlə, muzeylərlə, ərazinin turizm potensialı, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası istiqamətində görülən işlər və həyata keçirilən infrastruktur layihələr ilə yaxından tanış olublar.

Noyabrın 14-də tur-aksiyanın Gəncə şəhərinin, Şəmkir, Samux, Gədəbəy, Daşkəsən, Qazax və Ağstafa, eləcə də paytaxtın Nəsimi, Yasamal rayonlarının IX-XI sinif şagirdləri yaşadıqları şəhər və rayonlara yola düşüblər.

Tur-aksiya iştirakçılarını Lənkəran Şəhər İcra Hakimiyyətinin məsul işçiləri, müəllimlər və ictimaiyyət nümayəndələri yola salıblar.

Cənub bölgəsindən zəngin təəssüratla ayrılan məktəblilər ölkəmizi daha yaxından tanımaq üçün yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

## Xaçmaz

Səkkiz rayon və bir şəhərin məktəblilərindən ibarət 400-ə yaxın şagirdin Quba-Qusar-Xaçmaz marşrutu üzrə ekskursiyası başa çatıb. Şimal bölgəsinə ekskursiyada Bərdə, Ağdam, Tərtər, Goranboy, Ağcabədi, Beyləqan, Cəbrayıl, Qubadlı rayonlarını və Naftalan şəhərini təmsil edən ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri iştirak edib.

Səhər saatlarında şagirdlər onlara rəhbərlik edən müəllimlərin iştirakı ilə Quba şəhərində "Hərəmiz bir ağac əkək" devizi altında ağacəkmə aksiyasına qoşulublar. IDEA İctimai Birliyinin təşəbbüsü ilə keçirilən yaşıllaşdırma aksiyasında məktəblilər 400-dən çox ağac əkiblər.

Ağacəkmə aksiyasından sonra tur-aksiya iştirakçıları Xaçmaz rayonuna yola düşüblər.

Tur-aksiya iştirakçılarının diqqətinə çatdırılıb ki, Xaçmaz geniş turizm imkanlarına malikdir. Həmçinin parklar və muzeylər şəhəri adlandırılan Xaçmaz ən böyük kənd təsərrüfatı rayonlarından biridir.

Məktəblilər şəhərdəki Heydər Əliyev Mərkəzində də olublar. Diqqətə çatdırılıb ki, Heydər Əliyev Mərkəzinin yeni binasının açılışı Prezident İlham Əliyevin Xaçmaza səfəri çərçivəsində həyata keçirilib. Mərkəzdə ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və eksponatlar, əbədiyaşar liderin həyat və fəaliyyətinə dair tarixi sənədlər nümayiş etdirilir.

Ekskursiya zamanı məktəblilər Azərbaycanın təşəbbüsü ilə reallaşan bir sıra qlobal layihələr barədə də məlumatlandırılıblar. Bildirilib ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın yeni neft strategiyasının başlanğıcı hesab olunursa, bu strategiyanı uğurla davam etdirən Prezident İlham Əliyevin iştirakı ilə bu il sentyabrın 14-də Bakıda Heydər Əliyev Mərkəzində imzalanan "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsinə dair saziş isə "Yeni əsrin müqaviləsi" adlandırılır. İmzalanma mərasimində bir sıra nüfuzlu dövlətlərin, dünyanın nəhəng neft şirkətlərinin rəhbər şəxslərinin iştirakı buna sübutdur. Yeni müqavilə həm də xarici tərəfdaş şirkətlərin Azərbaycan iqtisadiyyatına olan inamını göstərir.

Daha sonra məktəblilər Xaçmaz şəhərində Azərbaycanın görkəmli şair və yazıçılarının, mədəniyyət və incəsənət xadimlərinin büstü qoyulan, açıq səma altında yaradılan Şəxsiyyətlər muzeyinə gəliblər. Ekskursiya iştirakçılarına 2006-cı ildə yaradılan muzey-park haqqında ətraflı məlumat verilib.

Tur-aksiya iştirakçıları 2013-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən Xaçmaz Rayon Tarix-Diyarşünaslıq Muzeyini də ziyarət ediblər. Diqqətə çatdırılıb ki, muzeydə həm ölkəmizin, həm də Xaçmaz rayonunun tarixini əks etdirən və turistlər üçün maraq doğuran çoxlu sayda eksponat var.

Məktəblilər Xaçmaz Dövlət Rəsm Qalereyası ilə tanışlıqdan sonra Bayraq Meydanı Kompleksinə gəliblər.

Meydan və Çənlibel parkında gəzintidən sonra şagirdlər ekskursiyalarını başa vuraraq, öz rayonlarına yola düşüblər.

**AZƏRTAC**